# Cəhənnəmin gözəlliklərindən

**_Onsuz da burada sonsuzlara kimi qaldığımızdan, siz də onları necə qurudub tütün eləməyi öyrənərsiniz. Çox əyləncəli bir işdir: siz polis komissarını qurudursunuz, o isə vaxt boş keçməsin deyə özü haqqında lətifələr danışır. Hə, odur, baş ocaqçı bura gəlir.Doğrudan da imperator-kral çap agentliyinin keçmiş direktoru, indi isə burada baş şeytan vəzifəsində işləyən Rixard onlara yaxınlaşdı. O cəhənnəmdə olduğu müddətdə çox az dəyişmişdi. İndi də bir vaxtlar yer üzündə olanda rəsmi məlumatları qəzetə verərkən olduğu kimi, şirin-şirin gülümsəyirdi_**



**_"Mənim yerim qır qazanı deyil, sizin aranızdadır, bax buna görə də, ağalar, mən sizin baş ocaqçı ilə görüşüb danışmaq istəyirəm. Mənə elə gəlir, sizin işçilər siyahını dolaşığa saldıqlarından məni qır qazanına atıblar. Göy üzünün polisləri məni buraya gətirəndə biz yolüstü ruhların təmizləndiyi şöbəyə döndük, oranın meyxanaçısı bizi İsa Məsihin ölümündən altı min il sonra yığılmış üzümdən çəkilmiş çaxıra qonaq elədi. Mənimlə gələn polislər içib bərk kefləndiklərindən, siyahını qarışdırıb məni günahkarların ruhları qaynayan bu qazana salıb getdilər. Ancaq bilirsiniz, yağ həmişə suyun üzünə çıxdığı kimi, düzgünlük də geci-tezi, bir gün üzə çıxıb bilinir"_**

**(Hekayə)**

***Şeytan Adolf günahkar ruhların qaynadıldığı 28 nömrəli qır qazanında ocaqçılıq eləyirdi. O, qısa çubuğunu tüstülədir, aradabir qara Bavariya pivəsindən qurtumlayıb özü üçün zümzümə eləyirdi: "Lay-lay körpəm, a lay-lay". Birdən qulağına qır qazanın içindən kiminsə sızıltılı səsi gəldi:***

***–Xahiş eləyirəm, məni buradan çıxarın!***

***Şeytan ürəkdən şaqqanaq çəkib güldü və qır qazanının altına bir-iki dini məzmunlu kitab atıb ocağı qızışdırdı. Ocağın alovu artıqca qır qazanında qaynayan ruhlar bərkdən qışqırmağa başlayırdı və bu da Şeytan Adolfu əyləndirirdi. O, üfürüb qır qazanının altındakı ocağı biraz da qızışdırdı, qazandakı buxarın təzyiqi və istiliyi artıqca o da incə bir səslə sevimli mahnısını mızıldanmağa başladı: "Lay-lay körpəm, a lay-lay". Bayaq səsi gələn ruh biraz da bərkdən qışqırıb, hönkürtüylə yalvarmağa başladı:***

–Ah, məni buradan buraxmasalar dəli oacağam!

Qır qazanından gələn bu hay-küyü eşidən yaxınlıqdakı şeytanlar da bura yaxınlaşdılar. Şeytan Rudolf dedi:

–Adolf, soruş gör bu qışqıran kimdir, nəçidir?

–Ey, ruhcığaz,– Şeytan Adolf qır qazanının içinə sarı qışqırdı.–Sizin adınız nədir?

–Mən "Neyefreyepresse" qəzetinin müxbiriyəm,–qazanın içindən səs gəldi.–Məni buradan buraxın, sizin haqqınızda elə şeylər yazım lap şeytanın da qusmağı gəlsin! Tez olun məni buradan çıxarın, mən sizin baş ocaqçı ilə danışmaq istəyirəm.Şeytanlar uğunub getdilər:

***–Gör nə maymaq ruhdur, elə bilir buradan qurtarmaq olar!***

***–İstəkli ruhcığaz,–ŞetanAdolf ondan soruşdu,–siz nə üçün baş ocaqçı ilə görüşmək istəyirsiniz?***

–Mənim yerim qır qazanı deyil, sizin aranızdadır, bax buna görə də, ağalar, mən sizin baş ocaqçı ilə görüşüb danışmaq istəyirəm. Mənə elə gəlir, sizin işçiləri siyahını dolaşığa saldıqlarından məni qır qazanına atıblar. Göy üzünün polisləri məni buraya gətirəndə biz yolüstü ruhların təmizləndiyi şöbəyə döndük, oranın meyxanaçısı bizi İsa Məsihin ölümündən altı min il sonra yığılmış üzümdən çəkilmiş çaxıra qonaq elədi. Mənimlə gələn polislər içib bərk kefləndiklərindən, siyahını qarışdırıb məni günahkarların ruhları qaynayan bu qazana salıb getdilər. Ancaq bilirsiniz, yağ həmişə suyun üzünə çıxdığı kimi, düzgünlük də geci-tezi, bir gün üzə çıxıb bilinir.

–Sən burada bizim başımızı Atalar sözləri ilə bişirmə, qardaş,–Şeytan Rudolf dedi.–Yox, sən burada bir yanlışlıq olduğunu deyirsənsə, onda biz indi baş ocaqçını buraya çağırıb işi aydınlaşdırarıq. Yaxşı, çıx görüm, qırağa!Ruh qazanın buxar çıxan deşiyindən vıyıltı ilə bayıra çıxdı. O, başdan-ayağa qan-tər içində idi, ağzından çıxıb sallanan dilini, ayaqlarına dolaşmasın deyə, çiyninə atmışdı. Şeytan Adolf ona bir parç dolusu pivə verdi, ruh pivəni içdi, sonra şeytanların arasında özünə yer eləyib oturdu.

***–Deməli, siz, yer üzündə yaşayanda "Neyefreyepresse" qəzetinin müxbiri olmusunuz?–Şeytanlardan biri soruşdu.–Ancaq doğrudan da, çox gözəl işiniz varmış!***

–Bilirsinizmi, əzizim,–Şeytan Adolf dilləndi,–bizim baş ocaqçımızın da yer üzündə yaşayanda elə səninkinə oxşar bir işigücü olub. O bura gəlib şeytan olmamışdan qabaq üçulduzlupaqon daşıyırdı, özü də imperator-kral çap agentliyinin direktoru işləyirdi. Sən, kim olduğunu indiyədək bizə niyə deməmisən?

–Sizə danışdığım kimi, məni ruların təmizləndiyi şöbədə içirib bərk kefləndirmişdilər. Ona görə də, məni buraya gətirib qır qazanına salanda elə bildim belə də olmalıdır. Çəkməyə tütününüz olmaz?

–Biz qurudulmuş polis komissarlarından düzəlmə tütün çəkirik, dostum,–Şeytan Rudolf ona bir siqaret verib dedi.–Ancaq yaman tünd tütün çıxır onlardan. Onsuz da burada sonsuzlara kimi qaldığımızdan, siz də onları necə qurudub tütün eləməyi öyrənərsiniz. Çox əyləncəli bir işdir: siz polis komissarını qurudursunuz, o isə vaxt boş keçməsin deyə özü haqqında lətifələr danışır. Hə, odur, baş ocaqçı bura gəlir.Doğrudan da imperator-kral çap agentliyinin keçmiş direktoru, indi isə burada baş şeytan vəzifəsində işləyən Rixard onlara yaxınlaşdı. O cəhənnəmdə olduğu müddətdə çox az dəyişmişdi. İndi də bir vaxtlar yer üzündə olanda rəsmi məlumatları qəzetə verərkən olduğu kimi, şirin-şirin gülümsəyirdi. O, "Neyefreyepresse" qəzetinin keçmiş müxbirini görən kimi tanıdı və onun üstünə cumub boynuna sarıldı.

–Ağalar!–o üzünü baş verənlərə təəcüblə baxan şeytanlara tutub dedi.–Sizlərdən çox xahiş eləyirəm, bu adamı sevəsiniz və onu bağışlayasınız, yer üzündə yaşayan quldur və fırıldaqçılardan heç biri buna çata bilməz. Şeytan Rudolf bu sözləri eşidəndə qızardı. Çap agentliyinin keçmiş baş direktoru isə sözünə davam elədi:

***–Bu gördüyünüz ağa, qələminin gücü ilə yüzlərlə insanları biri-biri ilə toqquşdurub qırğına veribdir. Sizə bir başagəldi danışım: ötən çağlarda Praqada çox kiçik bir nümayiş olmuşdu,–siz gərək o nümayişdən bu ağanın "Neyefreyepresse" qəzeti üçün hazırladığı yazını özünüz oxuyaydınız! Burada kiçik bir nümayiş olub, bu isə aranı qatmaq üçün götürüb nə yazsa yaxşıdır: Praqada inqilab baş verib, inqilabçılar burada beş yüz alman ailəsinin üzvlərini, böyüklü-kiçikli öldürüblər. Bir sözlə bu, yer üzündə yaşayanda çox yaxşı bir adam idi.İndi "Neyefreyepresse" qəzetinin keçmiş müxbiri günahkar çex ruhlarının qaynadıldığı 1620 nömrəli qır qazanında ocaqçılıq eləyir.***

**Yaroslav Haşek**
**Tərcümə etdi:**
**Araz Gündüz**

**Səhifəni hazırladı: Emil Rasimoğlu**